BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2005*

# MÜASİR BEYNƏLXALQ HÜQUQDA EKOLOJİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASI

**A.A.MƏHƏRRƏMOV**

*Məqalədə beynəlxalq ekoloji təhlükəsizlik konsepsiyası və onunla bağlı əsas xüsusiyyətlər beynəlxalq hüquq ədəbiyyatında müxtəlif fikir müxtəlifliyi və mühüm beynəlxalq sənədlər əsasında analiz edilir. Qeyd edilir ki, ekoloji təhlükəsizliyin təmin edilməsi beynəlxalq təhlükəsizliyin təminatı ilə bağlı daha geniş miqyaslı problemlərin həll edilməsində mühüm yollardan biridir. Bu zaman ətraf mühitin mühafizəsi və təbii sərvətlərin rasional istifadəsi prinsipləri də ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəlmişdir. Məqalədə qeyd edilir ki, müasir beynəlxalq hüquqda ekoloji təhlükəsizliyin təmin edilməsinin ayrı-ayrı aspektlərini tənzimləyən beynəlxalq normaların kifayət qədər olmasına baxmayaraq, bu istiqamətdə bir sıra hüquqi normalar hələlik formalaşmanın ilkin mərhələsindədir.*

*Sonda belə nəticəyə gəlinir ki, ekoloji təhlükəsizliyin təmin edilmə məsələsini beynəlxalq təhlükəsizlik və ətraf mühitin beynəlxalq-hüquqi mühafizəsi çərçivəsində nəzərdən keçirmək daha məqsədəuyğun olardı, bu da ekoloji təhlükəsizliyi beynəlxalq hüququn kompeks yarımsahəsi kimi şərtləndirir.*

Həm regional, həm də beynəlxalq ekoloji təhlükəsizliyin təmin edilməsi dünya siyasətinin mühüm tərkib hissəsidir. Yalnız ümumdünya ekoloji siyasətinin birgə həyata keçirilməsi ekoloji təhlükəsizliyi, son nəticədə isə bəşəriyyətin yaşamasını və tərəqqisini təmin edə bilər.

Bununla əlaqədar münasibətləri təhlil edərkən beynəlxalq hüquq ədəbiyyatında göstərilir ki, ekoloji təhlükəsizlik ümumi beynəlxalq təhlükəsizlik sisteminin ayrılmaz komponentidir (1). Ümumi beynəlxalq təhlükəsizlik sistemi isə BMT Nizamnaməsinə əsaslanmış, kollektiv təhlükəsizlik adını almış ənənəvi beynəlxalq təhlükəsizliyi tamamlayır. Kollektiv təhlükəsizliyə aşağıdakılar daxildir: beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri; beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prosedurası; sülh üçün yaranan təhlükənin, sülhün pozulmasının və təcavüzkar aktların qarşısının alınması və ləğv edilməsi üçün kollektiv fəaliyyət; BMT Baş Məclisi və Təhlükəsizlik Şurasının tərksilah və silahlanmanın məhdudlaşdırılması məsələlərinə baxılması üzrə səlahiyyətləri.

Ümumi beynəlxalq təhlükəsizliyin yaradılması konsepsiyası, bir tərəfdən BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əsaslanırsa, digər tərəfdən isə burada ümumi beynəlxalq təhlükəsizliyi təmin etmək üçün prioritet

istiqamətlər kimi beynəlxalq hüquq qaydasının bəzi əsas inkişaf istiqamətləri (hərbi, siyasi, iqtisadi, ekoloji və humanitar) istiqamətlər ayrılır.

Tədqiqatlarda ümumi beynəlxalq təhlükəsizliyin yaradılmasında beynəlxalq hüququn mühüm rolu xüsusi qeyd edilməklə bərabər, göstərilir ki, belə təhlükəsizlik dövlətlərin məcburi davranış qaydalarının, yəni beynəlxalq hüququn əsas, ümumtanınmış prinsip və normalarında göstərildiyi hallarda gözlənilməli olan müəyyən dövlətlərarası münasibətlər sistemi kimi özünü göstərir. Beləliklə, ümumi beynəlxalq təhlükəsizlik onun bütün bəndləri üzrə razılıq əldə edildiyi və onların beynəlxalq hüququn əsas, ümumtanınmış prinsip və normalarında təsbit olduğu zaman daha effektli olur. Ümumi beynəlxalq təhlükəsizlik sisteminə daxil olmuş beynəlxalq hüququn əsas, ümumtanınmış prinsip və normaları dövlətlərin elə davranış hüdudlarını göstərir ki, bir qrup dövlətlərin bunlardan kənarda fəaliyyət göstərməsi digər dövlətlərin təhlükəsizliyinə ciddi zərər yetirə bilər.

Ümumi beynəlxalq təhlükəsizlik sisteminin komponenti kimi ekoloji təhlükəsizlik konsepsiyasının hazırlanmasının zəruriliyi BMT Baş Məclisinin 42 və 43-cü sessiyalarında qeyd olunmuşdur. Belə ki, xüsusi olaraq vurğulanmışdır ki, ümumi benəlxalq təhlükəsizlik konsepsiyası baxımından ekoloji təhlükəsizlik – planetimizin bəşər həyatı üçün mühüm olan ekoloji sistemlərin təhlükəsizliyi və onların arasında lazımi təbii tarazlığın saxlanılmasıdır. Ekoloji təhlükəsizliyin təmin edilməsi – ətraf mühitin mühafizəsi prosesinin son nəticəsidir (2).

Ümumi beynəlxalq təhlükəsizlik sistemi beynəlxalq hüququn əsas, ümumtanınmış prinsip və normalarına əsaslandığına görə ekoloji təhlükəsizliyi təşkil edən sistem də BMT Nizamnaməsində təsbit olunmuş ümumtanınmış beynəlxalq hüquq norma və prinsiplərinə, həmçinin ekoloji təhlükəsizliyin təmin edilməsinin müxtəlif məsələləri üzrə dövlətlərin konkret qarşılıqlı münasibətlərinə tətbiq edilən xüsusi (müəyyən sahələrə aid) prinsiplərə əsaslanır.

Ekoloji təhlükəsizliyin təmin edilməsi üçün vacib olan prinsiplərə beynəlxalq əməkdaşlıq prinsipini aid edirlər. Bu zaman ərazi bütövlüyü və toxunulmazlıq prinsipi böyük əhəmiyyət kəsb edir (3). Transsərhəd ziyanın vurulmasının yolverilməzliyi prinsipi dövlət suverenliyinə hörmət prinsipindən irəli gəlir və öz ərazilərində dövlətlərin belə hərəkətlərini qadağan edir, nəticədə digər dövlətlərin milli ekosistemlərinə, eləcə də ümumi istifadə rayonlarındakı ekosistemlərə ziyan dəyə bilər. Bu prinsip öz ərazilərinə, yurisdiksiya və ya nəzarət zonalarına münasibətdə dövlətlərin hərəkətlərini məhdudlaşdırır və onların göstərilən hüdudlarında hərəkəti nəticəsində digər dövlətlərin və ümumi istifadə rayonlarının ətraf mühit sistemlərinə dəyən ziyana görə dövlətlərin ətraf mühitə zərər vurma məsuliyyətini nəzərdə tutur.

Dəniz mühitinin çirklənmədən mühafizəsi prinsipi Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyasında (192-195-ci maddələr) tam açıqlanır. Burada dəniz mühitinin bütün mümkün mənbələrdən çirklənməsinin qarşısının alınması, azaldılması və nəzarətdə saxlanılması üzrə bütün lazımi tədbirləri görməyi; bir rayonda digər rayon üçün birbaşa və ya dolayısı yolla çirklən-

mə təhlükəsi yaratmamağı, bir növ çirklənməni digər növ çirklənməyə çevirməməyi; dövlətlərin yurisdiksiyası və ya nəzarəti altında olan fəaliyyətin digər dövlətlərə və onların dəniz mühitinə çirklənmə yolu ilə ziyan vurmamasını təmin etməyi; dövlətlərin yurisdiksiyası və ya nəzarəti altında olan insidentlərin, yaxud fəaliyyətin nəticəsi olan çirklənmənin onların öz suveren hüquqlarını həyata keçirdikləri rayonlardan kənara yayılmamasını təmin etməyi dövlətlərin üzərinə mühüm öhdəliklər kimi qoyulur.

Göründüyü kimi, bu halda ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə prinsipi həm də ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəlmişdir. Daha sonra, ətraf mühitin radioaktiv çirklənməsinin xüsusi yolverilməzlik prinsipi də ekoloji təhlükəsizliyin təmin edilməsilə bağlıdır.

Bəzi tədqiqatçılar beynəlxalq hüquqda, hər şeydən əvvəl regional problemlər də daxil olmaqla, ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq problemlərin qlobal və olduqca kəskin xarakterini əks etdirən ekoloji təhlükəsizliyin təmin edilmə prinsipinin formalaşmasına xüsusi diqqət yetirirlər. Bu prinsipin tərkib elementləri kimi aşağıdakılar qeyd edilir: sülhün və beynəlxalq təhlükəsizliyin qorunmasına yönəlmiş normalar; tərksilah, sürətlə silahlanmanın dayandırılması; ətraf mühitə və iqlimə təsir vasitələrinin hərbi məqsədlə və ya istənilən düşmənçilik niyyətilə istifadəsinin qadağan olunması; nüvə energetikasının beynəlxalq təhlükəsiz inkişaf sisteminin təmin olunması; milli yurisdiksiya və nəzarətdən kənarda ətraf mühitə ziyan vurulmasının yolverilməzliyi; atmosferin, dəniz mühitinin, beynəlxalq şirin su hövzələrinin transsərhəd çirklənməsinin qarşısının alınması və məhdudlaşdırılması (4).

Beynəlxalq hüquq ədəbiyyatında ekoloji təhlükəsizlik anlayışına da müxtəlif istiqamətlərdə yanaşılır.

A.S.Timoşenkonun fikrincə, ekoloji təhlükəsizlik qlobal xarakterli sabit hal kimi mürəkkəb siyasi-hüquqi vahid, ayrı-ayrı qarşılıqlı əlaqədə olan elementlər sistemidir (5). A.S.Şişko hesab edir ki, ekoloji təhlükəsizlik mənbələri müəyyən dövlətdən xaricdə yerləşən zərərli təsirlərdən hər bir dövlətin ətraf mühitinin mühafizəsinin hüquqi, təşkilati və maddi təminatlarının xüsusi kompleksidir (6).

BMT Baş Məclisinin 42 və 43-cü sesiyalarında təklif edilmiş birgə qətnamə layihəsində ekoloji təhlükəsizlik bütün ölkələrin təhlükəsiz ekoloji şəraitdə sabit inkişafının təmin edilməsilə birbaşa əlaqələndirilmişdir (7). YUNEP İdarəetmə Şurası birinci sessiyasının işi haqqında hesabatda deyilir ki, ekoloji təhlükəsizlik indiki və gələcək nəsillərin rifahı üçün ekoloji ehtiyatların səmərəli və sabit inkişafını nəzərdə tutur (8). A.V.Kukuşkinanın fikrincə, ekoloji təhlükəsizliyi planetin bəşər həyatı üçün zəruri olan bütün ekoloji komponentlərin təhlükəsizliyinin təmin edilməsinə, həmçinin onlar arasında mövcud təbii balansın qorunub saxlanılmasına yönəlmiş beynəlxalq ekoloji normaların mürəkkəb qarşılıqlı əlaqəli və qarşılıqlı asılı sistemi kimi müəyyənləşdirmək olar. Bu zaman o, ümumi beynəlxalq təhlükəsizlik sistemi vasitəsilə ekoloji təhlükəsizliyə yanaşmanı ayırır və hesab edir ki, ətraf mühitin mühafizəsi sahəsində yaranmış mövcud prinsip və normaların məcmusunun bütün beynəlxalq ictimaiyyət üzvləri tərəfindən tanınması və

gözlənilməsi, həmçinin onların artan inkişafı və məcəlləşdirilməsi əsas məsələlərdəndir (9).

Y.A.Nesterenkonun fikrincə, belə məcəlləşdirilmədə daha ehtimal olunan mərhələ ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq-hüquqi prinsip və normaların ümumi sisteminin işlənib hazırlanması olmalıdır. Tədqiqatçının hesab etdiyi kimi, beynəlxalq müqavilələr ətraf mühitin mühafizəsinin beynəlxalq-hüquqi tənzimlənməsində əsas rol oynayır (10). Bəzi alimlər belə hesab edirlər ki, sosial və elmi tərəqqinin təsiri altında artıq beynəlxalq hüququn kompleks prinsipi – ekoloji təhlükəsizlik prinsipi formalaşmışdır (11). V.P.Kirilenkonun fikrincə, bu prinsip ətraf mühitin mühafizəsilə beynəlxalq təhlükəsizlik arasında birbaşa əlaqəni müəyyənləşdirir (12).

M.N. Kopılov göstərir ki, nəzəri baxımdan ekoloji təhlükəsizlik konsepsiya və prinsipi bu gün ekoloji təhlükəsizliyin əldə edilməsi və saxlanılması üzrə öhdəliklərin bütün dünyaya həvalə olunması vasitəsilə sosial-iqtisadi inkişafın strategiyası problemlərilə qarşılıqlı əlaqədədir (13).

A.V.Kukuşkina qeyd edir ki, ekoloji təhlükəsizlik prinsipinin hüquqi mahiyyəti dövlətlərin öz fəaliyyətini elə həyata keçirmək vəzifəsindən ibarətdir ki, ekoloji dəyişikliklərin artan təsirini yerli, regionar və qlobal səviyyələrdə, təhlükəsizliyin xeyrinə istisna edə bilsin. Beynəlxalq ekoloji təhlükəsizlik beynəlxalq münasibətlərin elə vəziyyətini nəzərdə tutur ki, bu zaman ətraf mühitin qorunması, ondan səmərəli istifadə və keyfiyyətinin yüksəldilməsi təmin olunur (14).

Daha sonra, ədəbiyyatda ekoloji təhlükəsizlik hüququ ekoloji təhlükəsizliyin təmin edilməsi sferasında, yəni çirkləndirilmiş obyektlər tərəfindən olan təhlükələrin neytrallaşdırılması üzrə təşkilati-hüquqi xarakterli kompleks tədbirlərin aparılması sferasında beynəlxalq hüquq subyektləri arasında yaranan münasibətləri tənzim edən hüquqi normalar sistemi kimi xarakterizə edilir (15).

Beləliklə, beynəlxalq münasibətlər sistemində ekoloji təhlükəsizlik sisteminin həllilə bağlı münasibətlərin xüsusiləşməsi prosesi baş verir ki, bunun da əsasını konkret obyekt – dövlətlərin ekoloji təhlükəsizliyi təşkil edir. Lakin bu münasibətlərin əsasını ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi ilə yanaşı, daha tutumlu obyekt – beynəlxalq təhlükəsizlik təşkil edən münasibətlərlə əhatə olunur. Ekoloji təhlükəsizliyin təmin edilməsi – beynəlxalq təhlükəsizliyin təmin edilməsinin daha geniş məsələlərinin həllinə nail olmağa aparan yollardan biridir.

Beləliklə, beynəlxalq hüquq sistemində ekoloji təhlükəsizliyin təhlili ilə əlaqədar belə qənaətə gəlmək olar ki, birincisi, beynəlxalq hüquq sistemində ekoloji təhlükəsizliyin təmin edilməsilə bağlı münasibətlər aydın seçilir. Bu münasibətlərin əsasın obyekt kimi ekoloji təhlükəsizlik təşkil edir. Bir tərəfdən bu obyekt daha tutumlu hüquqi münasibətlər obyektilə – beynəlxalq təhlükəsizliklə əhatə olunursa, digər tərəfdən isə ekoloji təhlükəsizlik daha çox digər konkret hüquqi münasibət obyektlərini (radiasiya təhlükəsizliyi, kosmik fəaliyyətin ekoloji təhlükəsizliyi, dənizçiliyin ekoloji təhlükəsizliyi və s.) əhatə edir. İkincisi, hazırda ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəlmiş beynəlxalq-hüquqi normaların geniş kompleksi yaran-

mışdır. Üçüncüsü, fikrimizcə, ekoloji təhlükəsizlik hüququ artıq hüquqi institut kimi nəzərdən keçirilə bilməz, çünki o özündə bir sıra hüquqi institutları birləşdirir, buna görə də, o, hüquqi institutlarla müqayisədə beynəlxalq hüquq sisteminin daha iri struktur bölməsidir, yəni beynəlxalq hüququn kompleks yarımsahəsidir. Dördüncüsü, ekoloji təhlükəsizlik hüququnda yalnız ona xas olan müvafiq xüsusi prinsiplər toplanır. Tədqiqatlarda ekoloji təhlükəsizlik prinsiplərinin aşağıdakı sistemi təklif edilir (16):

– Bərabər ekoloji təhlükəsizlik prinsipi;

– İqtisadi təhlükəsizliyin uyğun tələblərinin gözlənilməsinə nəzarət prinsipi;

– Milli və reqional səviyyədə ekoloji şərait haqqında müntəzəm informasiya mübadiləsi prinsipi;

– Ətraf mühitə ziyan vurulmasının qarşısının alınması prinsipi;

– Fövqəladə ekoloji şəraitdə beynəlxalq əməkdaşlıq prinsipi;

– Elmi-texniki əməkdaşlıq prinsipi.

Beləliklə, ekoloji böhran problemlərinin qoyuluşu təhlükəsizlik konsepsiyasının ətraf mühitin mühafizəsilə birlikdə tətbiq edilməsinə səbəb olmuşdur. Ekoloji təhlükəsizlik konsepsiyası siyasi, strateci elmlərdən, beynəlxalq münasibətlər haqqında elmdən beynəlxalq hüquqa keçmişdir. Beynəlxalq hüquq ədəbiyyatında ekoloji təhlükəsizliyin təmin edilməsində beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının əhəmiyyəti tam əsaslandırılmışdır ki, bu beynəlxalq hüququn yeni kompleks prinsipinin – ekoloji təhlükəsizlik prinsipinin formalaşmasına gətirib çıxarmışdır.

Bununla yanaşı beynəlxalq hüququn inkişaf prosesi daim davam edir və bu, ekoloji təhlükəsizliyin təmin edilməsi üzrə münasibətlərin tənzimlənməsinə yönəlmiş müxtəlif yeni beynəlxalq hüquq normalarının meydana çıxması zamanı öz ifadəsini və təsdiqini tapır. Bu yeni normalar müasir beynəlxalq hüququn bir çox sahələrini əhatə edir. Onlara müəyyən iyerarxiya xasdır. Ekoloji təhlükəsizlik prinsipinin məzmununu göstərməyə imkan yaradan müddəalar içərisində bunlar xüsusi yer tutur: sülhün və beynəlxalq təhlükəsizliyin qorunması; tərksilah, sürətlə silahlanmanın dayandırılması; ətraf mühitə və iqlimə təsir vasitələrindən hərbi məqsədlə və istənilən digər düşmənçilik niyyətilə istifadənin qadağan olunması; milli yuridiksiya və ya nəzarətdən kənarda ətraf mühitə ziyan vurulmasının yolverilməzliyi; transsərhəd çirkləndirilməsinin qarşısının alınması və ya məhdudlaşdırılması və s.

Beləliklə, beynəlxalq ekoloji təhlükəsizlik sisteminin yaradılması bu fəaliyyətin beynəlxalq-hüquqi tənzimlənməsilə müşayiət olunmalıdır. Bizim fikrimizcə, müasir beynəlxalq hüquqda ekoloji təhlükəsizliyin təmin edilməsinin ayrı-ayrı aspektlərini tənzimləyən kifayət qədər normalar mövcuddur, məsələn, radiasiya təhlükəsizliyinin, dənizçilik təhlükəsliyinin təmin olunması. Ekoloji təhlükəsizliyin ayrı-ayrı aspektlərini tənzimləyən bəzi beynəlxalq hüquq normaları isə hələ formalaşmanın ilkin mərhələsindədir.

Ekoloji təhlükəsizliyin təmin olunmasının kompleks prinsipi müxtəlif tənzimləmə predmetinə malik olan müqavilə normaları və adi normalardan

ibarətdir ki, onlar da bir çox beynəlxalq hüquqi sənədlərdə və beynəlxalq hüquq subyektlərinin praktikasında öz əksini tapmışdır.

Son nəticədə belə qənaətə gəlmək olar ki, ekoloji təhlükəsizliyin təmin olunma məsələsinə beynəlxalq təhlükəsizliyin və ətraf mühitin beynəlxalq-hüquqi mühafizəsinin təmin olunması çərçivəsində baxılmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, ekoloji təhlükəsizlik özündə ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi ilə əlaqədar müddəaları əks etdirməklə bərabər, həm də dövlətlərin təhlükəsizliyi və beynəlxalq təhlükəsizlik üçün ekoloji xarakterli potensial və real təhlükələrə cavab olan ümumi təhlükəsizlik istiqamətində formalaşmışdır.

## ƏDƏBİYYAT


1. Всеобъемлющая международная безопасностъ: Справочник. М., Междунар. отношения, 1990, с.251.
2. Мышко Ф.Г. Экологическая безопасность. М., Закон и право, 2003, с. 53-54.
3. Волова Л.И. Принцип территориальной целостности и неприкосновенности в современном международном праве. Автореф. дис. на соис. учен. степ. доктора юрид. наук. М., 1982, с.13.
4. Всеобъемлющая международная безопасностъ: Справочник. М., Междунар. отношения, 1990, с.255.
5. Тимошенко А.С. Глобальная экологическая безопасность – международно-правовой аспект. Советское государство и право, 1989, № 1, с.87.
6. Шишко А.А. Предупреждение трансграничного загрязнения (международно-правовые проблемы). Киев, Наукова Думка, 1990, с.4.
7. Дос. UN A/C 2142/L. 34, 1987, October 30.
8. Материалы ЮНЕП. Среднесрочный план программы ООН по окружающей среде на период 1990-1995 гг. Подпрограмма 10. Мир, безопасность и окружающая среда.
9. Кукушкина А.В. Взаимосвязь проблем экологической безопасности и разоружения (международно-правовой аспект). Автореф. дис. на соис. учен. степ. канд. юрид. наук. М., МГИМО МИД, 1993, с.14-15.
10. Всеобъемлющая международная безопасностъ: Справочник. М., Междунар. отношения, 1990, с.255.
11. Кукушкина А.В. Взаимосвязь проблем экологической безопасности и разоружения (международно-правовой аспект). Автореф. дис. на соис. учен. степ. канд. юрид. наук. М., МГИМО МИД, 1993, с.12.
12. Кириленко В.П. Принцип экологической безопасности в современном международном праве. Правоведение, 1989, № 3, с.49.
13. Копылов М.Н. О правовом содержании понятия «экологическая безопасность». Правоведение, 2000, № 1, с.114.
14. Кукушкина А.В. Взаимосвязь проблем экологической безопасности и разоружения (международно-правовой аспект). Автореф. дис. на соис. учен. степ. канд. юрид. наук. М., МГИМО МИД, 1993, с.14.
15. Серов Г.П. Правовое регулирование экологической безопасности при осуществлении промышленных и иных видов деятельности. М., Ось-89, 1998, с.33.
16. Тимошенко А.С. Экологическая безопасность и международное право. СЕМП, 1988. М., Наука, 1989, с.33-37; Трофимов В.Н. Экологическая и воен-

ная безопасность. Международное право и сила. М., Прометей, 1991, с. 76-78; Кукушкина А.В. Взаимосвязь проблем экологической безопасности и разоружения (международно-правовой аспект). Автореф. дис. на соис. учен. степ. канд. юрид. наук. М., МГИМО МИД, 1993, с.10-12.

## КОНЦЕПЦИЯ ЭКОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ В СОВРЕМЕННОМ МЕЖДУНАРОДНОМ ПРАВЕ

**А.А.МАГЕРРАМОВ**

### АННОТАЦИЯ

В статье на основе важнейших международных документов и существующего разнообразия мнений в литературе по международному праву анализируется концепция международной экономической безопасности и основные особенности, связанные с ней. Обеспечение экологической безопасности является одним из путей, ведущих к достижению решения более масштабных задач по обеспечению международной безопасности. При этом принципы охраны окружающей среды и рационального использования природных ресурсов также направлены на обеспечение экологической безопасности. В статье отмечается, что, несмотря на наличие достаточного количества международных норм, регулирующих отдельные аспекты обеспечения экологической безопасности в современном международном праве, некоторые правовые нормы в этом направлении находятся лишь на первой стадии формирования, следовательно, принцип комплексного обеспечения экологической безопасности охватывает договорные и обычные нормы, относящиеся к различным предметам регулирования.

В заключении делается вывод о том, что целесообразно рассмотреть вопрос обеспечение экологической безопасности в рамках обеспечения международной безопасности и международно-правовой охраны окружающей среды, что обуславливает право экологической безопасности как комплексная подотрасль международного права.